Xəyalə Miskərli

# ÖZÜMLƏ SÖHBƏT

qanun nəşriyyatı

**Xəyalə Miskərli. ÖZÜMLƏ SÖHBƏT**
Bakı, Qanun Nəşriyyatı, 2023, 64 səh.

Ölçü: 120x185 mm
Qapaq: yumşaq
Çapa imzalandı: 12.08.2023

Korrektor: Əyyar Tahir
Mətn dizaynı: Sevil Rafail
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
İstanbul Copyright Awards-ın qalibi
Bakı, Azərbaycan, AZ1102, Tbilisi pros., 76
Tel.: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212-42-37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-764-3

© Xəyalə Miskərli, 2023

© Qanun nəşriyyatı, 2023

## Baxışlar söylədi

İllər keçdi.
Biz görüşdük.
Susdu... Dodaqlar dinmədi.
Qara telə düşən dəni
Gördü... Dodaqlar dinmədi.

Heç xatırladımı məni?
Özlədimi əllərimi?
Soyuq qış axşamlarında
Gözlədimi pəncərənin kənarında
yollarımı?
Özlədimi sinəsinə
Bərk sarılan qollarımı?

Ürəkdə min sual qopdu
Susdu... Dodaqlar dinmədi.
Nə mən sordum, nə o dindi.
Susdu... Dodaqlar dinmədi.
Amma susmadı gözləri
Dindi baxışlar söylədi...

## Bəlkə də

Bəlkə də toyuna sayılı saat,
Bəlkə də toyuna bir şey qalmayıb.
Bəlkə də dünəndən qanın qaralıb,
Bəlkə də hisslərin ruhuna əsir.
Bəlkə də ürəyin mənim yanıma,
Ayağın toyuna indi tələsir.

Bəlkə də aynanın önünə keçib
Gözlərin içində əksimi gəzir.
Bəlkə itirilmiş sevgin güzgüdən
– Dur, getmə! – deməyə sənə tələsir?
Bəlkə gözləyirsən son kəs zəngimi?
Bəlkə durduracaq səni salamım.
Bəlkə də bəlkələr mənə təsəlli
Sənsə unutmusan çoxdandan məni.

## Biri səni gözləyir

Qəlbini üşütsə fevral havası,
Əllərini kəssə qışın şaxtası,
Üzünə bağlansa tale qapısı,
Üzülmə, yada sal bunu bir anlıq:
Haradasa biri səni özləyir.

Ömrün baharında çiçəklər solsa,
Ən yaxın dostun da düşmənin olsa,
Ən çətin durumda bir çıxış yoxsa,
Üzülmə, yada sal bunu bir anlıq:
Haradasa biri səni özləyir.

Yorğunluq ömrünün mehmanı olsa,
Yuxusuz gecələr qapını vursa,
Gözünə həsrətin yaşları dolsa,
Üzülmə, yada sal bunu bir anlıq:
Haradasa biri səni özləyir.

Siyah saçlarına bəyazlar qonsa,
Güzgüdəki əksin sənə yad olsa,
İçinə tənhalıq, qorxu sarılsa,
Üzülmə, yada sal bunu bir anlıq:
Biri səni hər halınla gözləyir...
Biri səni uzaqlarda özləyir ...

## Bitdi

Bitdi deyilə biləcək bütün sözlər,
Yalvarışlar da, haykırışlar da
Tükəndi...
Heç nə düzəldə bilmədi sınmış eşqi.
Heç nə təkrar həyat verə bilmədi
Solmuş sevgimizə.
Öldü əllərimizin içində,
Qucağımızda öldü sevgimiz.

Bir ovuc torpaq sən atdın üstünə,
Bir ovuc torpaq da mən.
Tükəndi...
Vidalaşdıq...
Sanki bu cinayəti biz yaşamamışıq kimi
Vidalaşdıq səninlə:
Əl görüşdük...
Son dəfə də öpüşdük...

Əlvida deyib getdik
Geriyə də baxmadıq...
Eşqin məzarı üstə
Bircə gül də qoymadıq...
Tükəndi...
Bitdi
Öldü...
Amma biri-birindən
Biz daha heç doymadıq...

## Əfsus, pəncərəsi yoxdur zamanın

Süzülüb zamanın pəncərəsindən
Bir anlıq keçmişə boylana bilək.
Acılı-şirinli xatirələrə
Nə olar bir anlıq qayıda bilək.

Görək əlimizdə çantalı vaxtı,
Görək ürəklərdə coşan vüqarı,
Görək yaxınları, görək bir anlıq
Həyatda olmayan tüm doğmaları.

Qayğısız günlərin yüksəlsin səsi,
Həyətdən anamız səsləsin bizi...
Duyaq o günləri, duyaq! Bir anlıq
Yenə uşaqlığın gəlsin havası.

O məsum varlığın keçib önünə
İncə sığal verək şux tellərinə.
Körpəcə əlləri möhkəmcə sıxıb
Alaq qabar olmuş əllərimizə.

– Balaca, bağışla bizi, bağışla!
Gələcək doludur qarla-yağışla.
Əlinə bir çətir verib söyləyək
– Bunu al əlinə, bizi bağışla!